# Ədalət, mərhəmət hisslərini yaşadan gənclərimiz yarışlarda xalqımızı əzmlə, ləyaqətlə təmsil edirlər

*"Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bizim idman nəticələrimiz, uğurlarımız, qələbələrimiz, eyni zamanda idmana dövlət tərəfindən göstərilən dəstək, Dövlət proqramlarının icrası, əlbəttə ki, beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir. Təsadüfi deyil ki, Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, beynəlxalq federasiyalar bizim fəaliyyətimizə çox yüksək qiymət verirlər".*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bir millətin yüksəlməsi gənclərinin təlim-tərbiyəsindən, inkişafından və dünyaya inteqrasiyasından da çox asılıdır. Vətənpərvər ruhda tərbiyə olunan gənclər xalqı hər zaman inkişafa, tərəqqiyə doğru aparır. Ulu öndər Heydər Əliyev irsinə sadiq, respublikamızın təməl dəyərlərini, xalqının milli əxlaq və mədəniyyətini mənimsəmiş, hər zaman vətən və millətinin mənafeyini hər şeydən üstün tutan Azərbaycan gənci istər elm, təhsil, istərsə də idman sahəsində üçrəngli bayrağımızı dünyanın hər yerində şərəflə dalğalandırır, Vətənimizi azad, suveren bir dövlət kimi dünya miqyasında qürurla təmsil edir.*

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Dövlət başçısının ölkə gənclərinə olan inam və etibarı, diqqət və qayğısı, müstəqil dövlətimizin daha etibarlı və gözəl gələcəyinin formalaşması üçün yüksək əhəmiyyətə malik fərman və sərəncamları gənclərin qarşısında mühüm vəzifələr qoyur. Bu il fevral ayının 2-də Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Forumda gənclərlə səmimi söhbət edən İlham Əliyev zamanın tələbinə uyğun bacarıqlı, geniş dünyagörüşlü, ümumbəşəri əxlaqi dəyərlərə sahib, milli-mənəvi dəyərlərimizə hörmət və məhəbbət hisslərini özündə əks etdirən, müstəqil Azərbaycan naminə hər zaman, hər yerdə yorulmadan, əzmlə, fədakarlıqla çalışan gənc nəslin yetişməsinin çox vacib olduğunu vurğulamışdır. Hər zaman milli-mənəvi dəyərlərimizin müdafiəsində duran Prezident İlham Əliyev gündən-günə müstəqil Azərbaycanın qüdrətinin artmasının bir çoxlarını narahat etdiyini, bunu qəbul edə bilməyən ünsürlərin olduğunu bildirmişdir. Dövlət başçısı xüsusi olaraq bu gün dünyada gəncləri vahid "dəyərlər" ətrafında birləşdirmək cəhdlərindən, onları öz tarixinə, dəyərlərinə qarşı qoyan sorosçulardan bəhs edərək, bu məsələdə gəncləri ayıq-sayıq olmağa, qlobolistlərin, sorosçuların təsirindən özlərini qorumağı və doğma Azərbaycanımızın adını hər zaman, hər yerdə uca tutmağı tövsiyə etmişdir.

Cəmiyyətin aparıcı qüvvəsinə çevrilən gənclər ölkə həyatının bütün sahələrində fəal iştirak edir, dövlətin dəstəyi ilə mühüm yerli və beynəlxalq tədbirlərdə çıxış edərək ölkəmizi dünyanın hər yerində uğurla təmsil edirlər. Bu tədbirlər Azərbaycan gənclərinin dünyagörüşünün, fəallığının artmasında, onların beynəlxalq əlaqələrinin inkişafında mühüm rol oynayır.

Davamlı inkişaf strategiyasının əsasını təşkil edən gənclər siyasətində idman xüsusi yer tutur. Müstəqilliyimizin ilk illərində bütün sahələr kimi, bu sahə də diqqətdən kənarda qalmış, ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmizdə idmana münasibət tamamilə dəyişmiş, bədən tərbiyəsi və idmanın inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. İstər idman infrastrukturunun yaradılması, istərsə də idman yarışlarının yüksək səviyyədə təşkili ölkəmizdə idmanın inkişafında və gənc idmançı nəslinin yetişməsində böyük rol oynayır.

Bu gün dünyada idman ölkəsi kimi tanınan Azərbaycanda idmanın kütləviliyi təmin edilir. Bunun əsasında isə ölkə başçımızın məqsədyönlü siyasəti dayanır. Ölkəmizdə idmana və bunun fonunda da idmançılara göstərilən dövlət qayğısı isə gənclərdə idmana olan həvəsi daha da artırır. İdmançılarımız beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil edir, dövlət himnimizi səsləndirir, bayrağımızı dalğalandırırlar. Beynəlxalq idman oyunlarına və turnirlərə yüksək səviyyədə ev sahibliyi etməsi də ölkəmizdə idmana göstərilən diqqət və qayğının göstəricisidir. Regionun lider dövlətinə çevrilən Azərbaycanın sürətli inkişafı, beynəlxalq aləmdə nüfuz qazanması, dünya birliyində tutduğu mövqe dövlətimizin idman siyasətinə mühüm töhfə verir. Artan beynəlxalq nüfuzu sayəsində hər il ölkəmizdə keçirilən beynəlxalq səviyyəli müxtəlif idman yarışları, o cümlədən dünya və Avropa çempionatları Azərbaycanın idman ölkəsi olmasını bir daha sübut edir.

Bu gün müasir Azərbaycan gəncliyi yeni inkişaf mərhələsinə qədəm qoyub və bu inkişaf mərhələsində isə idman önəmli yer tutur. İdmançılara diqqət və qayğı göstərilir, onların beynəlxalq yarışlarda iştirakı və qələbələrə imza atmaları üçün dövlətimiz tərəfindən bütün imkanlar yaradılır. Belə möhtəşəm qələbələrdən birini 23 yaşadək idmançılarımız bu yaxınlarda Bolqarıstanda 34 ölkənin iştirakı ilə keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatında qazandılar. Bu çempionatda gənc güləşçilərimiz 16 medal qazanaraq ölkəmizi ləyaqətlə təmsil etmiş, Avropada birinci olaraq dövlət himnimizi yeddi dəfə səsləndirmiş, bayrağımızı yüksəklərə qaldırmışlar. 23 yaşadək güləşçilərin Avropa çempionatında millimiz hər üç güləş növü üzrə uğurlu çıxış edərək yunan-Roma güləşi üzrə 2 qızıl, 1 gümüş və 2 bürünc, qadın güləşi üzrə 1 qızıl, 1 gümüş və 2 bürünc, sərbəst güləşdə isə 4 qızıl və 3 bürünc medal qazanmışlar. Sərbəst güləşçilərimiz komanda hesabında Avropa çempionu olmuş, yunan-Roma güləşçilərimiz isə üçüncü yeri tutmuşlar. 7 qızıl, 2 gümüş və 7 bürünc olmaqla ümumilikdə 16 medal qazanan milli komandamız ümumi sıralamada birinci yeri tutmuşdur. Bu isə Azərbaycanın güləş tarixində rekord nəticədir. Ölkə idmanında mühüm nailiyyət olan bu yarışlarda komanda hesabında ilk yerdə qərarlaşan idmançılarımız ölkəmizdə idmanın uğurla inkişaf etdiyini, Azərbaycanın idman dövləti olduğunu və idmançılarımızın gücünü, dövlətimizin qüdrətini nümayiş etdirmişlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 23 yaşadək idmançıların Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatının iştirakçılarını qəbul edərkən demişdir: "Bu gün siz qalib gəlmiş ölkəni təmsil edirsiniz. Biz müstəqil ölkə kimi böyük idman yarışlarına qatılanda torpaqları işğal edilmiş ölkə kimi çıxış edirdik. Sübut etməli idik və sübut edirdik ki, bizim gücümüz də var, iradəmiz də var və beynəlxalq idman arenalarında göstərdiyimiz məharət, güc özünü döyüş meydanında da göstərəcək... Amma həqiqət o idi ki, torpaqlarımız işğal altında idi və biz sübut etməli idik ki, nəyin bahasına olursaolsun torpaqlarımızı işğalçılardan azad edəcəyik və etdik. Bir daha demək istəyirəm, hesab edirəm ki, o cümlədən idman sahəsində əldə edilmiş uğurlar, bayrağımızın qaldırılması, himnimizin səsləndirilməsi vətənpərvərlik hisslərini daha da gücləndirirdi və hər birimizə bir daha göstərirdi ki, əgər biz idman yarışlarında düşməni təmsil edən idmançıları məğlub edə biliriksə, döyüş meydanında da mütləq qələbə qazanacağıq. Belə də oldu".

23 yaşadək idmançılarımızın Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatındakı möhtəşəm uğurlarından sonra güləşçilərimiz bu günlərdə daha bir uğura imza atdılar. Budapeştdə keçirilmiş Avropa çempionatında güləşçilərimiz böyük qələbə ilə Vətənə qayıtdılar. Bolqarıstanda keçirilmiş güləş üzrə 7-ci Avropa çempionatında olduğu kimi, Budapeştdə də idmançılarımız həm sərbəst güləş, həm yunan-Roma güləşi üzrə 16 medal qazanaraq Avropada birinci olmuş, bir daha Azərbaycanın adını zirvələrə ucaltmışlar.

Ənənəvi idman növü olan güləş üzrə həm gənclər, həm böyüklər arasında Avropada birinci yeri tutmaq ölkəmizdə idman ənənələrinin yaşadıldığının və inkişaf etdirildiyinin bariz nümunəsidir. Eyni zamanda, gənclərimizin vətənpərvər ruhda böyüdüklərinin göstəricisidir.

Sözsüz ki, vətənpərvərlik ruhunda tərbiyə alan, milli dəyərlərin önəm verildiyi mühitdə böyüyən hər bir gənc, hər bir Azərbaycan vətəndaşı öz əməyi ilə ölkəsini qüdrətləndirir. Məhz buna görə də, bu gün Azərbaycan dünyada sürətlə inkişaf edən ölkə kimi tanınır və dünyada nadir ölkələrdəndir ki, öz müqəddəratını özü həll edir, öz siyasətini müstəqil şəkildə aparır və istər döyüş meydanlarında, istər siyasi arenalarda böyük qələbələrə imza atır.

Beynəlxalq yarışlarda müzəffər ölkəni və qalib xalqı təmsil etmək həm böyük qürur, həm də böyük məsuliyyətdir. Bu, idmançılarımıza güclü stimul verir, əldə olunan qələbələrin əsasında dayanır. Macarıstanda keçirilmiş Güləş üzrə Avropa çempionatında iştirak edən Azərbaycan millisinin üzvlərini qəbul edən ölkə başçımız İlham Əliyev demişdir: "... idmanda hər şey ola bilər - məğlubiyyət də, qələbə də. Ancaq əminəm, gələcək yarışlarda nəticələrə baxmayaraq əsas odur ki, idmançılarımız ölkəmizi ləyaqətlə təmsil etsinlər, necə ki, bu günə qədər ləyaqətlə təmsil edirlər. Mən Budapeştdə keçirilmiş çempionatın gedişatına da nəzər yetirirdim, baxırdım, görürdüm ki, ən çətin anlarda rəqib cığallıq edəndə, nalayiq hərəkət edəndə bizim idmançılarımız öz gücü ilə qaydalar çərçivəsində rəqibi yerinə oturda bilmişdilər. Buna fikir verərkən yenə də İkinci Qarabağ müharibəsindəki hadisələr yadıma düşdü. Ədalət, eyni zamanda, mərhəmət, məğlub edilmiş tərəfə müəyyən dərəcədə mərhəmət hisslərinin göstərilməsi də xalqımıza xas olan xüsusiyyətlərdən biridir. Əsas odur ki, biz düşməni və ya idman rəqibini məhz qaydalar çərçivəsində, ləyaqət prinsipi əsasında məğlub etməliyik".

Dünyada sülhün, təhlükəsizliyin carçısı olan Azərbaycan gəncləri hansı sahədə çalışmasından, ölkəmizı dünyanın harasında təmsil etməsindən asılı olmayaraq xalqımıza xas olan ədalət, mərhəmət, ləyaqət hisslərini özlərində yaşadaraq istər siyası arenada, istərsə də yarış meydanlarında rəqibə ləyaqətlə qalib gəlirlər. Bu keyfiyyətlər isə xalqımızda əsrlər boyu formalaşıb.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**